**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizəd Çingiz Məmmədli oğlu Məhərrəmovun 29 dekabr 2009-cu il tarixli 237 saylı, vətəndaş Samir Canəli oğlu Əliyevin 29 dekabr 2009-cu il tarixli 242 saylı, vətəndaş Əsgər Höcət oğlu Bəşirov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 272 saylı, bələdiyyə üzvlüyünə namizəd Asəf Məmmədovun 29 dekabr 2009-cu il tarixli 283 saylı, vətəndaş Ədalət İsmayıl oğlu Əmiraslanov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 285 saylı, vətəndaş Səfərəli Sərkər oğlu Əzizovun 29 dekabr 2009-cu il tarixli 286 saylı, vətəndaş Eldar Cabbar oğlu Musayev və digərlərinin 29 dekabr 2009-cu il tarixli 288 saylı, vətəndaş Əzizağa Otarxan oğlu Babayev və digərlərinin 29 dekabr 2009-cu il tarixli 289 saylı, vətəndaş Mehriban Teymur qızı Hüseynlinin 29 dekabr 2009-cu il tarixli 291 saylı, bələdiyyə üzvlüyünə namizəd Seyidnur Ağayevin 29 dekabr 2009-cu il tarixli 292 saylı, vətəndaş Azad Fazil oğlu Nadirov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 293 saylı, vətəndaş Əlikram Əliyevin 29 dekabr 2009-cu il tarixli 294 saylı, vətəndaş Nadir Musa oğlu Zeynalov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 295 saylı, vətəndaş Yusif Saleh oğlu Mövsümovun 29 dekabr 2009-cu il tarixli 296 saylı, vətəndaş İlqar Əli oğlu Sadıqovun 29 dekabr 2009-cu il tarixli 298 saylı, vətəndaş Səid Bəhlul oğlu Ağayev və digərlərinin 29 dekabr 2009-cu il tarixli 299 saylı, vətəndaş Sveta Ənvər qızı Calalovanın 29 dekabr 2009-cu il tarixli 302 saylı, bələdiyyə üzvlüyünə namizədlər Fikrət Çərkəz oğlu Abbasov, Elburus Abdullkərim oğlu Allahverdiyev, Fəxrəddin Kotul oğlu Zamanov, Asəf Həsənqulu oğlu Murtuzayev və digərlərinin 29 dekabr 2009-cu il tarixli 303 saylı, vətəndaş Yasər Həmşəri oğlu Əliyev və digərlərinin 29 dekabr 2009-cu il tarixli 304 saylı, vətəndaş Mirbulud Musa oğlu Abdullayevin 29 dekabr 2009-cu il tarixli 305 saylı, vətəndaş Saməddin Səddər oğlu Mirzəyevin 30 dekabr 2009-cu il tarixli 306 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar bələdiyyə üzvlüyünə namizəd Çingiz Məmmədli oğlu Məhərrəmov 2009-cu il dekabrın 29-da, vətəndaş Samir Canəli oğlu Əliyev 2009-cu il dekabrın 29-da, vətəndaş Əsgər Höcət oğlu Bəşirov və digərləri 2009-cu il dekabrın 29-da, bələdiyyə üzvlüyünə namizəd Asəf Məmmədov 2009-cu il dekabrın 29-da, vətəndaşlar Ədalət İsmayıl oğlu Əmiraslanov və digərləri 2009-cu il dekabrın 29-da, vətəndaş Səfərəli Sərkər oğlu Əzizov 2009-cu il dekabrın 29-da, vətəndaş Eldar Cabbar oğlu Musayev və digərləri 2009-cu il dekabrın 29-da, vətəndaş Əzizağa Otarxan oğlu Babayev və digərləri 2009-cu il dekabrın 29-da, vətəndaş Mehriban Teymur qızı Hüseynli 2009-cu il dekabrın 29-da, bələdiyyə üzvlüyünə namizəd Seyidnur Ağayev 2009-cu il dekabrın 29-da, vətəndaşlar Azad Fazil oğlu Nadirov və digərləri 2009-cu il dekabrın 29-da, vətəndaş Əlikram Əliyev 2009-cu il dekabrın 29-da, vətəndaş Nadir Musa oğlu Zeynalov və digərləri 2009-cu il dekabrın 29-da, vətəndaş Yusif Saleh oğlu Mövsümov 2009-cu il dekabrın 29-da, vətəndaş İlqar Əli oğlu Sadıqov 2009-cu il dekabrın 29-da, vətəndaş Səid Bəhlul oğlu Ağayev və digərləri 2009-cu il dekabrın 29-da, vətəndaş Sveta Ənvər qızı Calalova 2009-cu il dekabrın 29-da, bələdiyyə üzvlüyünə namizədlər Fikrət Çərkəz oğlu Abbasov, Elburus Abdullkərim oğlu Allahverdiyev, Fəxrəddin Kotul oğlu Zamanov, Asəf Həsənqulu oğlu Murtuzayev və digərləri 2009-cu il dekabrın 29-da, vətəndaş Yasər Həmşəri oğlu Əliyev və digərləri 2009-cu il dekabrın 29-da, vətəndaş Mirbulud Musa oğlu Abdullayev 2009-cu il dekabrın 29-da, Saməddin Səddər oğlu Mirzəyev 2009-cu il dekabrın 30-da bir sıra seçki dairələrinin ərazilərində seçki prosesi zamanı bəzi qanun pozuntularının baş verməsini bildirmiş və qanunla müəyyən edilmiş tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən nəzərdən keçirilərək bu barədə müvafiq rəylər verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Daxil olmuş müraciətlər nəzərdən keçirilmiş və onların verilmə tarixindən müəyyən edilmişdir ki, şikayətlər seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvləri şikayətlərin geri qaytarılması barədə rəylər vermişlər.

Belə ki, yuxarıda göstərilən Təlimatın 7.1-ci bəndinə əsasən seçki komissiyaları tərəfindən şikayət qeydə alındıqdan və baxılması üçün ekspertə təqdim edildikdən sonra ekspert həmin şikayəti ilkin olaraq nəzərdən keçirir. Bu zaman ekspert şikayətin Seçki Məcəlləsi və bu Təlimatla

müəyyən edilmiş qaydaların pozulması ilə daxil olduğunu aşkar etdikdə, bu barədə qrup koordinatorunu məlumatlandırmaqla, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqından Təlimat"ın 4.1.2-ci bəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Ona görə də iddia edilən qanun pozuntularından qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə şikayət verilmədiyindən, müraciətlər mahiyyəti üzrə araşdırılmadan geri göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci, 4.1.2-ci və 7.1-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Bələdiyyə üzvlüyünə namizəd Çingiz Məmmədli oğlu Məhərrəmovun 29 dekabr 2009-cu il tarixli 237 saylı, vətəndaş Samir Canəli oğlu Əliyevin 29 dekabr 2009-cu il tarixli 242 saylı, vətəndaş Əsgər Höcət oğlu Bəşirov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 272 saylı, bələdiyyə üzvlüyünə namizəd Asəf Məmmədovun 29 dekabr 2009-cu il tarixli 283 saylı, vətəndaş Ədalət İsmayıl oğlu Əmiraslanov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 285 saylı, vətəndaş Səfərəli Sərkər oğlu Əzizovun 29 dekabr 2009-cu il tarixli 286 saylı, vətəndaş Eldar Cabbar oğlu Musayev və digərlərinin 29 dekabr 2009-cu il tarixli 288 saylı, vətəndaş Əzizağa Otarxan oğlu Babayev və digərlərinin 29 dekabr 2009-cu il tarixli 289 saylı, vətəndaş Mehriban Teymur qızı Hüseynlinin 29 dekabr 2009-cu il tarixli 291 saylı, bələdiyyə üzvlüyünə namizəd Seyidnur Ağayevin 29 dekabr 2009-cu il tarixli 292 saylı, vətəndaş Azad Fazil oğlu Nadirov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 293 saylı, vətəndaş Əlikram Əliyevin 29 dekabr 2009-cu il tarixli 294 saylı, vətəndaş Nadir Musa oğlu Zeynalov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 295 saylı, vətəndaş Yusif Saleh oğlu Mövsümovun 29 dekabr 2009-cu il tarixli 296 saylı, vətəndaş İlqar Əli oğlu Sadıqovun 29 dekabr 2009-cu il tarixli 298 saylı, vətəndaş Səid Bəhlul oğlu Ağayev və digərlərinin 29 dekabr 2009-cu il tarixli 299 saylı, vətəndaş Sveta Ənvər qızı Calalovanın 29 dekabr 2009-cu il tarixli 302 saylı, bələdiyyə üzvlüyünə namizədlər Fikrət Çərkəz oğlu Abbasov, Elburus Abdullkərim oğlu Allahverdiyev, Fəxrəddin Kotul oğlu Zamanov, Asəf Həsənqulu oğlu Murtuzayev və digərlərinin 29 dekabr 2009-cu il tarixli 303 saylı, vətəndaş Yasər Həmşəri oğlu Əliyev və digərlərinin 29 dekabr 2009-cu il tarixli 304 saylı, vətəndaş Mirbulud Musa oğlu Abdullayevin 29 dekabr 2009-cu il tarixli 305 saylı, vətəndaş Saməddin Səddər oğlu Mirzəyevin 30 dekabr 2009-cu il tarixli 306 saylı müraciətləri qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürüldüyündən ərizəçilərə geri göndərilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |

Tofiq Həsənov

İlham Məmmədov

Nizami Nadirov

Azər Tağıyev

Tamam Cəfərova

Rövşən İsmayılov

Oktay Hümbətli